*Azərbaycan Respublikasının*
*Auditorlar Palatası Şurasının*
*2017-ci il 31 mart tarixli 286/3 nömrəli*
*qərarı ilə təsdiq edilmişdir*

# AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ ŞURASI YANINDA KEYFİYYƏTƏ NƏZARƏT KOMİTƏSİNİN ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1.Bu Əsasnamə "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə, "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a, Beynəlxalq Audit Standartlarına (BAS), Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (Etika Məcəlləsi), Üzvlük Öhdəlikləri Bəyannaməsinə (ÜÖB) uyğun olaraq və qüvvədə olan qanunvericilik aktlarının tələblərinin həyata keçirilməsi, auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin təmin edilməsi və Azərbaycan Respublikasında auditor fəaliyyətini həyata keçirməyə səlahiyyəti olan Palata üzvü, auditor təşkilatı və ya sərbəst auditor (bundan sonra "Auditor" adlandırılacaq) tərəfindən peşə standartlarına və müvafiq etik tələblərə riayət olunmasını təmin etmək üçün kənar nəzarət sisteminin yaradılması məqsədilə işlənib hazırlanmışdır.

1.2.Əsasnamə auditorlarnin apardıqları audit yoxlamalarının keyfiyyətinə kənar nəzarətin təşkili və iş qaydaları üzrə Palata Şurası tərəfindən təyin edilən Keyfiyyətə Nəzarət Komitəsinin (bundan sonra "Komitə" adlandırılacaq) statusunu müəyyən edir.

1.3.Komitə auditor xidmətinin keyfiyyətinə və auditorlarnin peşə standartlarının tələblərinə riayət olunmasının yoxlanılması (bundan sonra "Keyfiyyətə kənar nəzarət" adlandırılacaq) üzrə öz səlahiyyətləri çərçivəsində nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının (bundan sonra "Şura" adlandırılacaq) işçi orqanıdır.

1.4.Komitə auditorlar tərəfindən göstərilən auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə vahid sistemi təşkil edir.

1.5.Komitə öz fəaliyyətində "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu və auditor fəaliyyəti sahəsində Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Palatanın Əsasnaməsini, bu Əsasnaməni, "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ı, Şuranın qərarlarını və Komitənin iş planını rəhbər tutur.

1.6.Komitənin tərkibi Şura tərəfindən təsdiq edilir.

1.7.Komitə bu Əsasnamənin tələblərini nəzərə alaraq, öz fəaliyyətinin reqlament və prinsiplərini müstəqil müəyyən edir.

## 2. Komitənin vəzifələri

2.1.Komitə aşağıdakı vəzifələri yerinə yetirir:
2.1.1. auditorların apardıqları auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin təşkili;

2.1.2. keyfiyyətə kənar nəzarət üzrə bildirişlərin göndərilməsini, nəzarət üçün tələb olunan sənədlərin qəbulunu, emalını, sistemləşdirilməsini və keyfiyyətə kənar nəzarətlə bağlı digər təşkilatı məsələlərin icrasını təmin edir. Hər bir auditor üzrə keyfiyyətə kənar nəzarəti təyin edir.

2.1.3. auditorların şirkətdaxili audit standartları və qaydalarının işlənib hazırlanması və keyfiyyətə daxili nəzarət sisteminin təkmilləşdirilməsi üzrə tövsiyyələrin hazırlanması;

2.1.4. auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin nəticələrinin qiymətləndirilməsi;

2.1.5. auditorların göstərdiyi auditor xidmətinin keyfiyyətinin yoxlanılması üçün illik iş planının hazırlanması və təsdiq edilməsi üçün Şuraya təqdim edilməsi;

2.1.6. Palatanın müvafiq strukturlar bölmələri ilə birgə, auditorların apardığı auditlərin keyfiyyətinə kənar nəzarət və Etika Məcəlləsinə riayət edilməsi məsələləri üzrə metodiki vəsaitlərin, göstəriş və tövsiyyələrin hazırlanması, seminarların təşkili;

2.1.7. auditorların göstərdiyi auditor xidmətinin keyfiyyətinin və müvafiq etik tələblərə riayət edilməsinin yoxlanılması zamanı qanunvericilik və normativ hüquqi sənədlərə əməl edilməsinə nəzarətin təmin edilməsi;

2.1.8. auditor xidmətinin keyfiyyətinə nəzarətlə bağlı il ərzində keçirilmiş yoxlamalar barədə məlumatların ümumiləşdirilməsi və müvafiq qaydada baxılması üçün Şuraya təqdim edilməsi;

2.1.9. yoxlamaların keçirilməsi zamanı yaranan təşkilati məsələlərə baxılması, onlara dair edilən sorğuların cavablandırılması;

2.1.10. yoxlama keçirilən zaman yaranan şikayət və mübahisələrə baxılması;

2.1.11. auditor xidmətinin keyfiyyətinə kənar nəzarətə dair yoxlamaların keçirilməsi ilə bağlı metodiki materialların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması;

2.1.12. auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə aparılmış bütün yoxlamalara dair illik icmalın hazırlanması və Şuraya təqdim edilməsi;

2.1.13. Palatanın müvafiq struktur bölmələri ilə əlaqələrin təmin edilməsi;

2.1.14. işçi qrupunun müfəttişlərinin seçilməsi, hazırlanması və onların peşəkar səviyyəsinin artırılması;

2.1.15. müfəttişlərin reyestrinin aparılması;

2.1.16. Şuranın qərarlarına əsasən təkrar auditin və ya plandankənar yoxlamaların aparılması;

2.1.17. auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalarda nəzərdə tutulmuş digər məsələlərin həll edilməsi.

## 3. Komitənin üzvləri

3.1.Komitənin tərkibi Şura tərəfindən təyin edilməklə, sədr, sədrin müavini və 5 nəfər üzvdən ibarət təşkil edilir.
3.2.Aşağıdakılar Komitənin üzvü ola bilərlər:
3.2.1. Komitənin fəaliyyəti istiqamətində ixtisas və iş təcrübəsinə malik, auditor fəaliyyətinin yoxlanılmasında təcrübəsi olan auditorlar;

3.2.2. Palatanın səlahiyyətli nümayəndəsi olmayan, auditin nəticələrində maraqlı olan tənzimləyici qurumların nümayəndələri. Bu nümayəndələr müvafiq qurumların təqdimatı ilə Komitənin üzvü ola bilərlər.

3.3.Komitənin qərarını təsdiq etmək, ləğv etmək və ya bu qərarlara əlavə və düzəlişlər etmək yalnız Şuranın müstəsna səlahiyyətlərinə aiddir.

3.4.Hər bir Komitə üzvü bir səsə malikdir.

3.5.Komitə ekspert kimi kənar mütəxəssislər dəvət edə bilər. Ekspertlərin əməyinin ödənilməsi Komitə sədrinin təklifi nəzərə alınmaqla Palata rəhbərliyi tərəfindən həll edilir.

3.6.Komitənin üzvləri üç il müddətinə təyin olunur. Komitənin hər bir üzvü yeni müddətə təyin edilə bilər.

3.7.Komitə üzvlərinin fəaliyyəti ictimai əsaslarla (ödənişsiz) həyata keçirilir. Komitə sədrinin təklifinə və Şuranın qərarına əsasən fəal üzvlər mükafatlandırıla bilər.

3.8.Palatanın səlahiyyətli nümayəndələri Komitə sədrinin razılığı ilə Komitənin işində iştirak edə bilərlər. Bu halda səlahiyyətli nümayəndələr Komitənin iclaslarında məşvərətçi qismində iştirak edirlər.

3.9.Komitənin sədri Komitənin müvafiq iclaslarının keçirilməsi vaxtı və yeri haqqında üzvlərə, ekspertlərə və səlahityyətli nümayəndələrə bildiriş göndərir. Bildiriş müasir rabitə vasitələri ilə (poçt, telefon, SMS, e-mail, skayp və bigər vasitələr) həyata keçirilə bilər.

3.10. Komitənin sədri Şuranın qərarı ilə təyin edilir.

3.11. Komitənin sədri:

3.11.1. Komitənin fəaliyyətini təşkil edir;

3.11.2. Komitənin üzərinə düşən vəzifələrin icrasını təmin edir;

3.11.3. Komitənin fəaliyyətinə dair Şuranın qərarlarının, Palata rəhbərliyinin əmr və sərəncamlarının icrasını təmin edir;

3.11.4. qrafik üzrə komitənin iclaslarının keçirilməsini təşkil edir və bu iclaslara sədrlik edir;

3.11.5. Komitənin iclas protokollarının aparılmasını və digər sənədlərin tərtib edilməsini təmin edir;

3.11.6. Komitənin fəaliyyəti barədə Şuraya hesabatlar təqdim edir.

3.11.7. bu Əsasnamə ilə ona həvalə edilmiş digər hüquq və vəzifələri yerinə yetirir;

3.12. Komitənin sədri müfəttiş ola bilər.

3.13. Komitənin fəaliyyətinin sənədləşmə və təşkilati təminatı Komitənin katibi tərəfindən həyata keçirilir.

3.14. Komitənin katibi Palatanın işçilərindən olmaqla Palata rəhbərliyi tərəfindən təyin edilir.

3.15. Komitənin katibi:

3.15.1. Komitənin iclaslarında müzakirə ediləcək məsələlərə dair materialları hazırlayır;

3.15.2. Komitənin iclas protokollarını aparır;

3.15.3. Komitənin sənədlərini sistemləşdirir və saxlanmasını təmin edir;

3.15.4. sənədləşmə və təşkilati təminat üzrə Komitə sədrinin tapşırıqlarını yerinə yetirir;

3.15.5. Komitənin iclaslarının keçirilməsi vaxtı və yeri barədə, həmçinin gündəlikdəki məsələlər barədə Komitə üzvlərinə 3.9 maddədə nəzərdə tutulduğu qaydada bildirişlər göndərir;

3.15.6. Bu Əsasnamədən irəli gələn digər işləri görür.

## 4. Komitənin iş qaydası

4.1.Komitənin fəaliyyəti Komitənin iclasında qəbul edilmiş və Şura tərəfindən təsdiq edilmiş iş planına uyğun həyata keçirilir.

4.2.Komitənin iclaslarını Komitənin sədri, o olmadıqda isə sədrin müavini aparır. Onların olmadığı və müvafiq tapşırıqlar verilmədiyi halda, Komitənin iclaslarında iştirak edən üzvlərdən iclasın sədri seçilir.

4.3.Komitənin iclası üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli hesab edilir. İclasda yetərsay olmadığı halda, sədr iclasın buraxılması və təkrar iclasın keçirilmə tarixinin, vaxtının və yerinin təyin edilməsi barədə qərar qəbul edə bilər.

4.4.Qərarlar iclasda iştirak edən Komitə üzvlərinin adi səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər sayda olduqda, sədrin səsi həlledici hesab edilir.

4.5.Qəbul edilmiş qərarla razı olmayan Komitə üzvü öz fikrini şifahi və ya yazılı şəkildə bildirə bilər. Bu barədə protokolda qeydlər edilir. Fikir ayrılığı təsdiq ediləcək məsələlər üzrədirsə, Komitə üzvünün fikri baxılmaq üçün Şuraya çıxarılır.

4.6.Komitənin iclaslarında gündəliyə daxil edilmiş məsələlər müzakirə edilir. İclasın gündəliyi Komitənin iş planına və Komitə sədrinin göstərişinə əsasən Komitənin katibi tərəfindən hazırlanır.

4.7.Komitənin sədrinin, sədr müavinin, üzvlərinin və iclasda iştirak edən digər şəxslərin təşəbbüsü ilə iclasın gündəliyinə digər məsələlərin müzakirəsi daxil edilməsi barədə qərar qəbul edilə bilər.

4.8.Zərurət olduğu hallarda, Komitə üzvlərinin qərarına əsasən iclas təxirə salına bilər.

4.9.Komitənin qərarı ilə onun üzvlərindən birinə, Komitənin katibinə və ya müfəttişlərə Komitənin iclasında müzakirə ediləcək sənədlərin layihələrinin işlənib hazırlanması tapşırıla bilər.

4.10. Komitənin bütün iclasları protokollaşdırılmalıdır. Protokollar saxlanılması üçün Komitənin katibinə verilir və il başa çatdıqdan sonra Palatanın Aparatına təhvil verilir.

**5. Komitə üzvlərinin məsuliyyəti**

5.1.Komitə üzvləri qərarların qəbul edilməsində müstəqillik və obyektivlik prinsiplərinə əsaslanırlar.

5.2.Komitənin üzvləri Komitənin iclaslarında mütəmadi iştirak etməlidirlər. Komitənin üzvü hər hansı bir səbəbdən iclasda iştirak edə bilmədiyi təqdirdə o, bununla bağlı Komitənin sədrinə və ya katibinə məlumat verməlidir. Komitənin üzvü üzürsüz səbəbdən ardıcıl olaraq üç iclasda və ya il ərzində keçirilmiş iclasların ümumi sayının 25%-dən çoxunda iştirak etmədiyi təqdirdə, Komitə onun üzvlükdən çıxarılması barədə qərar qəbul edə bilər. Bu qərar Şura tərəfindən təsdiq edilməlidir.

5.3.Lazımı səviyyədə və ya bu Əsasnamə ilə müəyyən olunmuş qaydada öz vəzifəsini yerinə yetirməyən Komitə sədri və ya Komitə üzvləri Şura tərəfindən vaxtından əvvəl tutduğu vəzifədən azad edilə bilər.

**6. Əsasnaməyə əlavələr və düzəlişlər edilməsi qaydası**

6.1.Bu Əsasnaməyə əlavələr və düzəlişlər Şura tərəfindən qəbul edilən qərarlara əsasən həyata keçirilir.